# Koreya Kinosu Festivalının bağlanış mərasimi keçirildi

Azərbaycan Mədəniyyət Fondu, Azərbaycan—Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası (SEBA) Koreya Fondunun təşkilatçılığı və Koreya Respublikasının Azərbaycandakı səfirliyinin dəstəyi ilə iyulun 6-dan avqustun 15-dək ölkəmizdə keçirilən "Azərbaycanda Koreya Kinosu Festivalı" başa çatıb. Qeyd edək ki, festival ölkəmizin 5 regionunda keçirilib.









Festivalda fəlsəfi, psixoloji, ictimai-siyasi əhəmiyyətinə görə xüsusi dəyərə malik 10 Koreya filmi nümayiş etdirilib. Bütün filmlər SEBA-nın dəstəyi ilə Azərbaycan dilinə dublyaj olunub. "Koreya Kinosu Festivalı" Azərbaycan tamaşaçılarına Koreya mədəniyyəti və insanları ilə daha yaxından tanışlıq imkanı yaradıb, eyni zamanda, onların asudə vaxtlarının səmərəli keçirilməsində mühüm rol oynayıb. Bildirilib ki, ümumilikdə "Azərbaycanda Koreya Kinosu Festivalı"nda 21 minə yaxın tamaşaçı iştirak edib.

Avqustun 15-də Qəbələdə Heydər Əliyev Konqres Mərkəzində festivalın bağlanış mərasimi olub. Mərasimdən öncə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev festivalın təşkilatçıları və kino mədəniyyətinin nümayəndələrini qəbul etmişdir. Qəbuldan sonra ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülmüşdür.

Mərasimdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək son illər Qəbələnin mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini bildirib. Rayonun iqtisadi sahədə əldə etdiyi uğurları tədbir iştirakçılarının nəzərinə çatdırıb. Hörmətli başçı bildirib ki, Koreya Kinosu Festivalı Qəbələnin mədəni həyatında əlamətdar hadisəyə çevrilib. Tamaşaçılar bu filmlərə çox böyük maraq göstəriblər.

Sonda rayon icra hakimiyyətinin başçısı Koreya Kinosu Festivalı keçirilən bölgələr sırasına Qəbələ rayonunun da daxil edildiyinə görə respublika Prezidenti cənab İlham Əliyevə, ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya, "SEBA" Azərbaycan—Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının rəhbərliyinə öz dərin təşəkkürünü bildirdi.

SEBA Assosiasiyasının sədri Ruhəngiz Heydərova çıxışında qeyd edib ki, festivalın bağlanış mərasiminin Qəbələdə keçirilməsi təsadüfi deyil. Azərbaycanın qədim mədəniyyət paytaxtı Qəbələ artıq mötəbər beynəlxalq toplantılara, elmi simpoziumlara, mədəniyyət tədbirlərinə, musiqi festivallarına, sərgi və konfranslara, eyni zamanda, idman yarışlarına böyük uğurla ev sahibliyi edir. "Mədəniyyət millətin, xalqın vizit kartıdır",— deyən Ruhəngiz Heydərova ulu öndər Heydər Əliyevin mədəniyyətimizin, incəsənətimizin, eləcə də kino sənətinin qorunması və inkişafındakı tarixi xidmətlərini minnətdarlıqla xatırladıb. O, "Koreya Kinosu Festivalı"nın məhz ulu öndər Heydər Əliyevin təsis etdiyi 2 Avqust - Azərbaycan Kinosu Günü ərəfəsinə və həmin bayramın qeyd edildiyi günlərə düşdüyünü xüsusi vurğulayıb. Prezident İlham Əliyevin yorulmaz fəaliyyəti nəticəsində Azərbaycan mədəniyyətinin daha da tərəqqi etdiyini diqqətə çatdıran Ruhəngiz Heydərova bildirib ki, kinematoqrafiyanın, milli kinomuzun inkişafı üçün həyata keçirilən islahatlar, müasir kino müəssisələrinin tikintisindən tutmuş dövlət hesabına filmlərin çəkilməsinə qədər kompleks tədbirlər bu sahənin inkişafına böyük töhfələr verir.

Ruhəngiz Heydərova Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin dünyada təbliği və tanıdılmasındakı misilsiz xidmətlərindən də danışıb, ölkəmizdə ilk dəfə keçirilən "Koreya Kinosu Festivalı"nın yüksək səviyyədə reallaşmasına göstərdiyi dəstəyə görə ona minnətdarlığını bildirib. Mədəniyyət və incəsənətin həm də ayrı-ayrı ölkələri, xalqları, insanları birləşdirən, yaxınlaşdıran böyük dəyər olduğunu söyləyən Assosiasiyanın sədri bu festivalın Azərbaycan və Koreya xalqlarının mədəniyyətlərinin yaxınlaşmasına, xalqlarımız arasında mənəvi bağların daha da möhkəmləndirilməsinə xidmət edən ən gözəl layihələrdən olduğunu vurğulayıb. Həmçinin Ruhəngiz Heydərova Koreya Respublikasının Müstəqillik günü münasibətilə Koreya xalqını təbrik edib.

Çıxışının sonunda Ruhəngiz Heydərova festivalın təşkilatçılarından olan Koreya Fonduna və Koreya Respublikasının ölkəmizdəki səfirliyinə də göstərdikləri dəstəyə görə təşəkkür edib, koreyalı kino xadimlərinə böyük sənət uğurları arzulayıb.

**(Ardı 4-cü səhifədə).**